DOI: 10.36719/AEM/2007-2019/47/62-64
**Sürəyya Allahverən qızı Həsənova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti

# İMADƏDDİN NƏSİMİ LİRİKASINDA HİSSİ-EMOSİONAL OVQATIN FORMALAŞDIRILMASINDA XİTABIN ROLU

***Açar sözlər:*** *dil, şeir, xitab, üslub, obraz, poeziya,*
***Key words:*** *language, poem, application, structure, feature, poetry*
***Ключевые слова:*** *язык, стихотворение, обращение, стиль, образ, поэзия*

Dahi şairimiz Nəsimi əsərlərinin lirik strukturunda hər bir linqvistik vahid əsrarəngiz estetik meyar və poetik meyarlar təcəssüm etdirir, ekspressivlik baxımından xüsusi çevikliyə yiyələnir. Bədii fikri məksimum dərəcədə təbii və sərbəst ifadə etmək niyyəti misilsiz söz ustadına imkan verir ki, poetik qiyafələrə daxil etdiyi linqvistik vahidlər yeni məna hüdudlarına, üslubi təsir dairəsinə, dərin semantik siqlətə yiyələnsinlər, orijinal poetik qiyafələrə girməklə bədii mətləbin bütün təfərrüatları haqqında geniş və aydın təsəvvürlər yaratsınlar.

Nəsimi poeziyasında sözün potensial enerjisi poetik idrak və obrazlı əhval-ruhiyyənin formalaşdırılmasında müstəsna rol oynayır. Sözün poetik qüdrətinə dərindən yiyələnməklə Nəsimi istənilən anlayışda obrazlı baxışlarını, estetik münasibətlərini yüksək səviyyəyə qaldıra bildi, gerçəkliyin poetik şərtinin, onun doğurduğu estetik təəssüratların şərhinə nail oldu. Bunun sayəsində bədii söz ustadının əsərlərində poetik ovqat, dilimizin koloritli materialları, spesifik üslubi vasitələri ilə yaranan nümunələr xüsusi cazibə və təbiilik qazanır, hər bir təsvir və ifadə vasitəsi öz zəngin semantikası, poetik siqləti deyim rəvanlığı misralardan doğan ahəngin axarında yeni nəfəslə təravətlənir. Məhz ona görə də Nəsiminin qələmində poetik qənaətlərin orijinal bədii təsdiqi üçün sözlər həmişə obrazın mahiyyətinə uyğun gəlir. Bədii təfəkkür məhdudluğu olmadığı üçün sözün şeiriyyəti, poetik ruhu dərhal sezilir və müəllifin düşüncə tərzi sözün semantik hüdudlarına genişlik verir.

Nəsiminin dilində hər bir ifadə formasının özünəməxsus üslubi çevikliyi vardır. Onun şeir poetikasının mükəmməlliyi, şeir dilinin şirinliyi, səs-söz naxışları, bədii boyaları rəngarəng və zəngin üslubi imkanlarla çıxış edir. Dahi söz sənətkarının üslubu xalq danışıq dilinin təbiiliyi, sadəliyi və ifadə qüdrəti ilə nəfəs alan sənət dilidir. Bu, özünü xitablardan istifadə məharətində bütün incəlikləri ilə büruzə verir.

Məlum olduğu kimi, "bədii ədəbiyyatda xitablar ekspressiv səviyyə daşıyır. Xitab və onun tərkibindəki sözlərin leksik mənası, xitabların ifadə tərzi, intonasiyası bədii bir vasitədir" (2, 306). Nəsimi şeir dilinin əsas, aparıcı ritm və intonasiya əlamətlərini, fəlsəfi mündəricəsini öz spesifikasına uyğun şəkildə qabarıq təzahür etdirməkdə xitabların fəal iştirakı xüsusi maraq doğurur. Təzadlı hadisələri, poetik həyəcanları, ziddiyyətli mühakimələri həm ritorik şəkildə, həm də real cizgilərlə verməklə xitabların doğurduğu ritmik səslərin Nəsimi üslubunda xüsusi yeri var. Ritmik səciyyəsi, estetik məziyyəti ilə fərqlənən xitabların sadalanma məqamında işlənməsi isə mətni ritmləşdirir, informasiya çalarlarına xüsusi kolorit verir. Bədii mətnə poetiklik gətirən xitablar həmçinin onu emosional tələffüz axarına salır. Xitabların işlənmə intensivliyi şeir texnologiyasının zəruri tələbi kimi reallaşır və eyni sintaktik konstruksiyaların sıralanması üçün stimula çevrilir.

Vokativlər, ritorik xitablar xüsusi poetik ovqatın yaranması üçün bünövrə rolunda çıxış edir. Müəlliflə - xitab edənlə xitab edilənin arasındakı poetik münasibətlər şərh olunduqca bu münasibətin oxucu qəlbinə nüfuzetmə prosesi intensivləşir, sadalanmadan irəli gələn sürəklilik uzandıqca misraları təşkil edən bütün dil vahidləri işlək vəziyyətə düşür. Estetik cəhətdən cazibəli struktura düşən misralar sırf poetik ruh, ritorik hökmlər sayəsində fundamental yaradıcılıq hüdudlarına daxil olur. Xitabların poetik mahiyyətini asanlıqla çatdıran metodikanın təsiri nəticəsində sözlər öz semantik yükünü və üsuli funksiyasını zənginləşdirir. Nəsiminin beytlərində müraciət bildirən sözlər əslində xitablıq həddini aşır, drammatik replikalar kimi əks səda qoparır. Bu proses daha çox lirik qəhrəmanın müraciət obyektinə intensiv müraciəti məqamlarında meydana çıxır.

Misilsiz bədii-söz sənətkarının

*Ey gülüm, ey sünbülüm, ey süsənim, ey ənbərim,*
*Ey mənim noğulumvü səbrim, ey nabatım, şəkərim* (3, 161)

Qəzəldəki nümunələrdən göründüyü kimi, məntiqi vurğu ilə xüsusi ekspressivliyə malik olan hər bir xitab bədii mühit formalaşdırmağa istiqamətləndirilmişdir. İntonasiyanın bədii-üslubi boyaları sadalanan xitabların poetik siqlətində daha qabarıq nəzərə çarpır. Xitabların estetik imkanlarına müvafiq olaraq sətirlərdəki ritm-melodikanın bədii-psixoloji gücü artır, hissi-emosional əhvali ruhiyyənin təsir dairəsi genişlənir. Aydın sezilir ki, intonasiya imkanları ilə xitablar bədii məzmuna xüsusi zənginlik əlavə edir. Poetik intonasiyada da semantik yeniləşmə baş verir. Xitablar bütövlükdə qəzəlin bədii intonasiya aksemtiki sərrast əks etdirir. Bunlar onu bir daha təsdiqləyir ki, Nəsimi yaradıcılığında forma, deyim tərzi poetik mündəricənin təkrarolunmazlıq mündəricəsidir. Təbii və orijinal forma fikrin poetik həyatı üçün etibarlı reallıq, bədii niyyətin gerçəkləşdirilmə vasitəsidir, münasib ritm və intonasiya qəliblərində təzahür edən pafosdur.

*Ey həbibim, ey təbibim, ey bütüm, ey həmdəmim,*
*Ey rəfiqim, ey şəfiqim, ey ənisim, dilbərim* (3, 161).

Qəzəlin estetik təsiri həm də xitablarla yanaşı işlənmiş ey nidalarının yaratdığı ahəngdarlığa əsaslanır. Bu, təsvir predmetinin mahiyyətinə uyğunlaşdırılan misraların melodiyası, səs ahəngi və ritmik funksiyası ilə diqqəti daha çox cəlb edir. Nidanın simmetrik təkrarı ilə müşaiyət olunan xitablar ritm və vəznin, musiqililiyin şeirə daxil etdirilən yolu kimi yaddaşlara köçür. Bədii fikrin, obrazlı təsəvvürün əhatəliliyinə nail olmaqda xitabların nidalarla paralelliyi ən vacib üslubi vasitəyə çevrilir.

Xitablarla yaradılan ritm və intonasiyada bədii mətnin cövhəri üzə çıxır və bədii mətləbin artırılması üçün ən münasib poetik forma səciyyəsinə yiyələnir. Aşağıdakı beytdən göründüyü kimi, sadalanan xitabların həmqafiyəliliyi (bahar-nigar-şikar, hərif-şərif-zərif), səkkiz ismin birinci şəxs mənsubiyyət şəkilçisi ilə işlənməsi emosional ovqatı müəyyən ahəng üzərində kökləyir, qəzəlin ritmini ifadə edən başlıca vasitə olaraq bədii formanın fikri və şəkli əlamətlərinin vəhdətini yaradır:

*Ey baharım, ey nigarım, ey şikarım, şahidim,*
*Ey hərifli, ey zəriflim, ey şərifim, sərvərim* (3,161).

Nəsiminin zəngin misralarında assonans və alliterasiyalar onun daha zəngin çalarlarla və məzmunlu alınmasında, mətnin məna cövhərinin qabarıqlaşdırılmasında mükəmməl poetik vasitə kimi özünü göstərir. Beytlərdə alliterasiya və assonansların hüdudlarının genişləndirilməsinə göstərilən səylər elə məhz səs və ahənginin, fonoloji təkrarların ritm, ahəngdarlıq və axıcılıq yaratma səyləri ilə bilavasitə bağlıdır:

*Ey gülüstanım, gülüm, sərvi-gülandamım mənim,*
*Sağərim, şəmim, şəbistanım, məlayikmənzərim.*
*Ey rəyahim rahətim, ruhi-rəvanım lütf ilə*
*Sərfərazım, sərkeşim, şuxü səqdət əxtərim* (3, 161).

Xitab kimi çıxış edən leksik vahidlərin semantik və üslubi cəhətdən fəallığı ilə yanaşı misalların ritmik quruluşunda müəyyən fonemlərin (g, ü, s, ş, r) təkrarı da diqqət çəkir. Misraların ahəngində canlandırılan akustik effektlər xitabların üslubi rəngini, poetik çalarlarını zənginləşdirir, oxucunun qəlbində poetik hisslər oyadır. Xitablardakı təkrarlanan səslər qəzəlin forma və məzmununun üzvi hissəsi olaraq güclü poetik əks-səda doğurur. Bu faktlar onu göstərir ki, Nəsiminin sənət dilində xitablarla bərabər kiçik detallar da, fonoloji vahidlər də poetik ifadə tərzinə xidmət edir, şeirin bütün komponentləri öz varlığını, üslubi rolunu hiss etdirir.

Nəsiminin dilində eyni misrada xitabların biri-birini izləməsi dərin məzmunu və ahəndarlıq yaratma üsulunun ən bariz nümunəsi kimi dəyərləndirilir. İfadə strukturunun zənginiyi, estetik sadəlik xitabların fəallığı ilə yaradılarkən mətn professional poeziya səviyyəsi qazanır. Bu isə lirik “mən”i hisslər aləminin mahiyyətinə vermək işində misilsiz rol oynayır:

*Ey mənim Xurşudu Mahim, ey çırağım, fanusum,*
*Şux çeşməm, lütfi-şahim, ey mübarnı peykərim* (3, 161)

Nümunələrdən göründüyü kimi, xitabların kəmiyyət çoxluğu ilə düzəlmiş təsirli misralar, emosional sətirlər poetik mənanın zəngin üslubi çalarlarla meydana çıxmasında təyinedici əlamət kimi olduqca önəmlidir. Xitabların köməyi ilə qəzəlin melodik strukturu, misraların quruluş kamilliyi ideya-bədii pafosa aydınlıq gətirir, bütün estetik məziyyətləri ilə janrın üslubi potensialına uyğun gəlir. Xitablar üzərində qurulmuş sətirlər dilimizin hərarəti ilə yoğrulduğu üçün, xalq dilinin təbii ifadə üsulları ilə saflaşdığı üçün emosional təsir gücü kəsb edir. Fikir və poetik ahəngdarlığın vəhdəti, məna aydınlığı və bədii tamlığın sintezi xitabların biri-biri ilə bağlanmasından törəyir.

Deməli, Nəsimi poeziyasının ləyaqətli tərəfi onun məzmununa uyğun bədii forma mükəmməlliyidir ki, bu da poetik-üslubi vasitələrin hərəkətə gətirilməsi, intensivləşdirilməsi sayəsində gerçəkləşdirilmişdir. Nəsimi yaradıcılığında forma mükəmməlliyini, onun estetik səviyyəsini müəyyənləşdirən ən mühüm faktorlardan biri də şeir dilinin qaydaları çərçivəsində bədii ovqat törədən xitablar, onların sadalanma məqamlarını düzgün müəyyənləşdirməkdir. Nümunələrdən göründüyü kimi, Nəsimi xitabların bədii-üslubi imkanlarından cazibəli səs-söz naxışları, incə estetik ştrixlər kimi istifadə etmişdir. Bilavasitə, qəzəlin daxili ekspressivliyi, poetik səciyyənin dinamikliyi, deyim mütəhərrikliyi xitabların ifadə keyfiyyətlərindən güc-qüvvət alır.

Nəsiminin dilində "nidalar və xitablar əzəmətli bir intonasiya gərginliyi yaradır" (1, 158). Bədii mətn əhatəsində poetik sanbalını artırır, fikri dərk etmə sürətinə təkan verir. Xitablar formal əlamətlərindən, zahiri görkəmindən daha çox məzmunlu siqləti, daxili mənasının zənginliyi ilə səciyyələnir. Ekspressivlik və obrazlılıq əlamətləri bədii mənasını dəqiq və sərrast xitablar vasitəsilə vermə təşəbbüsü doğurur. Ona görə də Nəsiminin əsərlərində xitabların üslubi logallarına görə diferensiyallaşması konkret poetik fakt kimi çıxış edir. Dil faktları kimi xitablar da Nəsimi üslubunun ən mənalı elementinə, ayrılmaz atributuna çevrilir. O da önəmlidir ki, xitablar Nəsiminin dilində həm kommunikativ, həm də estetik funksiyası birgə fəaliyyət göstərir. Vahid ahəng üzrə tənzimlənməklə onlar olduqları fikir axarını münasib poetik məcraya yönəldə bilir. Nəticə olaraq Nəsimi şeirləri həm struktur həm də semantika cəhətdən şairanəlik nəsib edir. Misralardakı çevikliyi xitablara imkan yaradır ki, fikrin təsirli, sözün tutumlu və kəsərli olmasını stimullaşdırsın.

**Ədəbiyyat:**

1. Axundov Ağamusa, Şeir sənəti və dil, Bakı, Yazıçı 1980, 159 s
2. Azərbaycan bədii dilinin üslubiyyatı (oçerklər) Bakı, "Elm", 1970, 358 s.
3. İmadəddin Nəsimi, İraq divanı, Bakı, Yazıçı 1987, 336 s.
4. Hüseynov Məhərrəm, Səsin poeziyası. Bakı, "Elm və təhsil, 2010, 318 s.

**The role of adress in the formation of emotional-sensual mood in the lyrics of Imadeddin Nasimi**

**Summary**

The article is devoted to the features of the poetry of the great poet Nasimi. Here, the style of the adresses played in the poetic text was analyzed on the basis of specific examples, and their specific manifestations are explained in artistic and esthetic terms. The role played by adresses in the Nasimi style and the scientific activities of the creative process have also been interpreted.

**Роль обращения в формировании эмоционально-чувственного настроя в лирике Имадеддина Насими**

**Резюме**

Статья посвящена особенностям поэзии великого поэта Насими. Здесь стиль обращений, играемых в поэтическом тексте, был проанализирован на основе конкретных примеров, а их конкретные проявления объяснены в художественных и эстетических терминах. Роль, которую играют обращения в стиле Насими, и научная деятельность творческого процесса, также была интерпретирована.

**Rəyçi: prof.M.Hüseynov**